**UOT 02.41**

***Züleyxa Qurbanova***
***Azərbaycan Texniki Universiteti***
***AZ1073, Bakı, Yasamal, Hüseyn Cavid, 107***
***E-mail:*** **aysel.memmedova.2019@bk.ru**

# SİVİLİZASİYA ANLAYIŞI VƏ ONUN MAHİYYƏTİ

**Xülasə:** Müəllif sivilizasiyanı yeni yaranan əmək bölgüsü və bunun əsasında formalaşan əmtəə bölgüsü və bu əsas üzərində formalaşan xüsusi mülkiyyətə əsaslanan cəmiyyətin yaranmasıdır. Qeyd edilir ki, sivilizasiyanın formalaşmasını bəşəriyyətin "qızıl əsri" kimi də xarakterizə edənlər vardır. Bu anlayışların dəqiq elmi-nəzəri təsnifatının verilməsi, onların müxtəlif çalarlarının araşdırılması bəşər tarixinin müxtəlif inkişaf pillələri, bu pillələrin inkişaf mexanizmi və bütövlükdə tarixi proses haqqında düzgün təsəvvürlər formalaşdırmaqla yanaşı, həm də elmi-nəzəri qənaətlər olmaqla mühüm idraki və praktiki əhəmiyyət kəsb edirlər.

**Açar sözlər:** Milli, ümumbəşəri, sivilizasiya, mədəniyyət, tərəqqi.

Mədəniyyətlə bağlı olan anlayışlardan biri də "sivilizasiya"dır. Bu termin latın dilindəki "sivilis" sözündən götürülərək "vətəndaş", "mülk", "dövlət" mənalarını ifadə edir. Dilimizdə bu termini çox vaxt "inkişaf", "tərəqqi"mənalarında işlədirik. Əlbəttə, "sivilizasiya" anlayışı özünün ilkin mənasında məhzbu məzmunu, yəni "tərəqqi"ni ifadə edir. Çox zaman bizə elə gəlir ki, "tərəqqi" yalnız müasiri olduğumuz bu günə aiddir. Amma əslində tarix boyu mədəniyyət və sivilizasiya anlayışları bir-birinə bağlı olmuşdur. Məsələn, qədim sivilizasiyalar haqqında şahidlik edən abidələr bunun bir daha canlı nümunəsidir. Bəzən isə,sivilizasiyanın modern texnikası ilə bağlılığına güvənilir.

Əslində sivilizasiya, ilk növbədə insanların şüurunda, beynində olmalıdır. Məhz bu xüsusiyyətinə görə görkəmli filosof İ.Kant qeyd edirdi ki, sivilizasiya insanın öz həyatı və davranışını nizama salandan sonra başlayır. Sivilizasiya inkişafin ən yüksək mərhələsi, eyni zamanda süqutun başlanğıcıdır. Bunu sübut etmək üçün tarixi mərhələlərin bir-birini əvəz edərək süqutlarının nümunəsi kifayətdir. Belə ki, onların süqutuna səbəb bu mərhələlərin özünəxas ən yüksək inkişafı, xüsusilə, təsərrüfatın tərəqqisi idi.

Tarixi inkişaf prosesinə uyğun olaraq sivilizasiyaların da formaları mövcuddur: quldarlıq, feodalizm, kapitalizm və s. İnkişafın bu tarixi dövrlərində sivilizasiya ilə mədəniyyət eyni addımlamış və vəhdət təşkil edərək bir-birini tamamlamışdır. Sivilizasiya mədəniyyətin zəruri taleyidir. Görkəmli alman filosofu və kulturoloqu O. Şpenqlerə görə mədəniyyət potensialın açılması, imkanların gerçəkləşməsidirsə, sivilizasiya mədəni varlığın böhranı və sonudur. Yaxud, "Sivilizasiya mədəniyyətin qocalığıdır". Əgər bu ifadənin dərindən təhlilinə diqqət yetirsək məntiqi bir cavab əldə edərək, insan müdrükliyə qocalıqda çatdığı kimi, mədəniyyət də sivilizasiyaya sonda çatır. Görkəmli rus kulturoloqu N.A.Berdyayev isə yazır ki, hər bir mədəniyyətin sivilizasiyaya çatması labüddür. Bu mədəniyyətin taleyidir. O, ölümlə nəticələnir. Bəs mədəniyyət sivilizasiyadan nəilə fərqlənir? Görkəmli kulturoloqun fkrincə mədəniyyət öz əsasına görə dini,sivilizasiya isə dini deyildir. Mədəniyyətin kökü dini inamdan ayindən gəlirsə, sivilizasiyada dünyəvi, bəşəri güc daha mühüm amildir.

Mədəniyyət milli, sivilizasiya isə beynəlmiləldir. "Sivilizasiya bəşəri bir şəhərdir". Sivilizasiya haqqında fikirlərə L.Morqanın əsərlərində də rast gəlirik. O, bəşəriyyəti üç əsas mərhələyə bölməklə tarixi inkişafın sonuncu, üçüncü mərhələsini "barbarlıq", vəhşilikdən sonrakı tərəqqi kimi adlandırır ki, bu da sivilizasiyadır. Mədəniyyət və sivilizasiya anlayışlarını müxtəlif aspektlərdən tədqiq edənlərin hamısını bir nöqteyi-nəzər birləşdirir ki, bu da bir neçə məqam ilə izah edilir. Bunlar ilk növbədə aşağıdakılardır: birincisi "mədəniyyət" anlayışı "sivilizasiya" anlayışına nisbətən daha genişdir. Belə ki, "mədəniyyət" anlayışı həm bir tayfa və ya birliyə, həm də miqyası olduqca geniş əraziyə aid ola bilər. Məsələn, "Azərbaycanlıların mədəniyyəti" və ya "Avropa mədəniyyəti" və s; ikincisi, "mədəniyyət" özündə elmi-texniki tərəqqi ilə yanaşı, nəsillərdən ötürülən mənəvi-humanist varisliyi də əhatə edir, "sivilizasiya" da isə maddi-istehsal üstünlüyü daha qabarıq şəkildə özünü biruzə verir; üçüncüsü, "mədəniyyət" irqi və insan qruplarının milli- etnik xüsusiyyətləri ilə izah edilirsə, "sivilizasiya" daha ümuminsani, qlobal miqyası özündə əks etdirir; və nəhayət, dördüncüsü, "mədəniyyət" anlayışı dini başlanğıca malikdirsə, "sivilizasiya" da bunlar labüd deyildir. Bütün bu deyilənlərdən belə bir qısa nəticə əldə etmək olar ki, mədəniyyətin kökündə daha çox mənəvi əsaslar, ideyalar durursa, "sivilizasiya"nın kökündə maddi amillər üstünlük təşkil edir. İnsanlar mənən sivilizasiyaya çatmalıdırlar ki, maddi də onu həyata keçirə bilsinlər.

Mədəniyyətin müxtəlif sahələrində, məs. incəsənətdə-musiqi, boyakarlıq, heykəltaraşlıq və digər növlərdə modern cizgilərin meydana gəlməsi texniki tərəqqi ilə incəsənətin qaynayıb qarışmasına dəlalət edir. Xüsusilə rəssamlıqda meydana gələn yeni-XX əsrin özünəxas xüsusiyyətlərini əks etdirən cərəyanlar (surrealism,

modernism, kubizm) sanki inqilab etmişlər. Bunun özü mədəniyyətdə sivilizasiyadır. Ancaq qəribəsi budur ki, mütəfəkkirlərin bir qismi müasir dövrümüzdə "mədəniyyətdə sivilizasiya" anlayışına müxtəlif aspektdən yanaşırlar. Onların bir qismi sivilizasiyanın bu günümüzə, digərləri isə, keçmişə aid olduğunu qeyd edirlər. Artıq yaşadığımız XXI əsrdə keçmiş əsrin mədəniyyəti və sivilizasiyası haqqında daha aydın təhlil vermək asan olacaqdır.

Mədəniyyət-cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur, həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onların nəsildən-nəsilə vermək bacarığıdır. Mədəniyyət insanın sirli-sehirli dünyasıdır. Onun özünü dərk etməsi vəşəxsiyyətin mövcudluq üsuludur.

"Sivilizasiya" latınca sivilis sözündəndir, "vətəndaşlıq", "dövləti" mənalarını verir, cəmiyyətdə əldə edilmiş maddi və mənəvi nailiyyətləri, cəmiyyətin inkişafı ilə bağlı uğurları bildirir. Təsadüfi deyildir ki, bir sıra tədqiqatçılar cəmiyyətin ümumdünya tarixi inkişaf prosesini bildirmək üçün "sivilizasiya" anlayışını işlətmişlər. "Ailənin, xüsusi mülkiyyətin və dövləti mənşəyi" adlı əsərində F.Engels Morqanla birlikdə bəşər tarixinin vəhşilik, barbarlıq və sivilizasiya dövrlərindən ibarət olduğunu qeyd etmişdir.

Ümumiyyətlə, son dövrlərdə sivilizasiya problem ön plana çıxmışdır. Bununda bir sıra səbəbləri vardır. Birincisi, müasir dünyada elmi-texniki inqilabın genişlənməsi Qərbin və Şərqin bütün ölkələrində istehsal texniki vasitələrinin və üsullarının inkişafına kömək etmişdir. İkincisi, keçmiş SSRİ-də sosializm quruculuğuna yeni baxış, kapitalist inkişafına istiqamət götürülməsi iki əsas Şərq-Qərb sivilizasiyası haqqında mübahisənin güclənməsinə səbəb olmuşdur. Belə bir dilemma yarandı: Bəşər sivilizasiyası birdir yoxsa bir neçədir? Bəşəri inkişafın yolları içərisində formasyon, yaxud sivilizasiya arasında fərq vardır. Bu fərqi hələ İ.Kant göstərmişdir. Kanta görə, insan öz həyatı və davranış qaydalarını müəyyənləşdirdikdən sonra sivilizasiya başlanır. Sivilizaiyalı adam heç vaxt başqasına pislik etməyən adamdır. O, mədəni və nəzakətlidir, diqqətli və mehribandır. Kant mədəniyyəti mənəvi qəti imperative ilə əlaqələndirir. Qəti imperativ praktiki qüvvəyə malikdir və əqlə uyğun olaraq insan əməlini hamı tərəfindən qəbul edilmiş normalara uyğun məcraya istiqamətləndirir.

Sivilizasiya dedikdə, bir tərəfdən, cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi, digər tərəfdən isə mədəni dəyərlərin (maddivə mənəvi) mənimsənilməsi səviyyəsi nəzərdı tutulur ki, bu da bütün ictimai həyatı və onun spesifikasını göstərir. Şübhəsiz, müəyyən sivilizasiyadan söhbət gedərkən, sivilizasiya ən çox mədəniyyətlə eyniləşdirilir. E. Taylor öz tədqiqatlarında belə yazmışdır: "Mədəniyyət və yaxud sivilizasiya". Lakin o, eyni zamanda bəzi fərqləri də göstərə bilmişdir. Sivilizasiya-nın ikinci əlaməti –mədəniyyətin mənimsənilməsi üsulu-ədəbiyyatda çox az işlənmişdir. Praktika sübut edir ki, bu əlamət olduqca vacibdir. Çünki, bəşər tarixi bir daha göstərir ki, mədəniyyətin mənimdənilməsi üsulu necədirsə, sivilizasiya da elədir. Məsələn, təsadüfi deyildir ki, biz Qərb və Şərq sivilizasiyasını bir-birindən fərqləndiririk.

İnkvizisiya məhz xristianlığın törəməsidir. Şərqdə din elmə aşkar şəkildə mane olmadığından, onlar hələ də birlikdə addımlayır. Məhz islam dininin elmə

qarşı loyallığı, liberallığı, dözümlülüyü elmin uzun əsrlər boyu dinin təsiri dairəsində qalmasına imkan yaratmışdır.

Müasir dövrdə sivilizasiyanın daha utopik mənzərəsini yaratmaq üçün son zamanlar ciddi səylər göstərilməkdədir. Bu məsələdə dünyada futuroloji baxışları ilə seçilən Ayzek Əzimov daha irəli gedərək yazır: "2000-ci illərin qulluqçuları yeni həyat tərzi üçün lazım olan bütün zəruri olan vasitələrə malik olmaq üçün ola bilsin ki, maaşlarının yarısından məhrum olunsunlar". O yeni sivilizasiyanın daha çox sosial yönümlü və insan mənafeyini güdən, onun şəxsiyyətini yüksəklərə qaldıran sosial sistem olacağına inandığını bəyan edirdi. Bu fikirlər bəzi Qərb filosoflarının sosial dövlət anlayışı ilə eyniyyət təşkil edir.

Müasir elmi-texniki inqilabın sivilizasiyaya təsiri özünü daha çox onda göstərir ki, əsası "sənaye inqilabları" deyilən və istehsal prosesində insan əməyinin ilk dəfə olaraq maşın və mexaniki ünsürlərlə yüngülləşdirilməsi ilə başlanan sivilizasiyanın bir mərhələsi öz yerini elmin və məhsuldar qüvvələrin misilsiz nailiyyətləri ilə səciyyələnən yeni sivilizasiyaya- "postindustrial sivilizasiyaya" verir.

Sivilizasiya nəzəriyyəsinin ilk klassiklərindən biri kimi, "Rusiya və Avropa" əsərinin müəllifi N.Y.Danilyeviskinin adını xüsusi qeyd etmək lazımdır. O, adı çəkilən əsərində həm Rusiya-Avropa münasibətlərini geniş tədqiq etmiş, həm də burada "milli sivilizasiya" ideyasını irəli sürərək "Polisentrizm", yəni sivilizasiyaların bir mərkəzdə, məsələn təkcə Avropada deyil, dünyanın daha çox mərkəzlərində yaranması ideyasını əsaslandırmağa çalışdı. Onun sivilizasiyayaların yaranması və inkişafına dair fikri də kifayət qədər maraqlıdır. O, sivilizasiyanın inkişafını çaylar, dənizlər və okeanlar dövrünə ayırmaqla lokal sivilizasiyaların rolunu da ayrıca olaraq izah etməyə cəhd etmişdir.

Sivilizasiyanın mənşəyini araşdırarkən Qərb tədqiqatçılarının bir çoxu A. Toynbinin mövqeyində dayanır və aşağıdakı əlamətləri ön plana çəkirlər: 1) nisbətən inkişaf etmiş əkinçilik və sənətkarlığın ondan ayrılması, 2) sinifli cəmiyyət, 3) dövlət, 4) şəhərlər, 5) monumental tikililər, 6) yüksək inkişaf etmiş incəsənət, 7) yazı mədəniyyəti, 8) nisbətən inkişaf etmiş din və ideologiya birliyi.

Sivilizasiyanın mənşəyini araşdırarkən 2 mühüm cəhətə diqqət yetirmək lazımdır:

Birincisi, sivilizasiya birdən-birə deyil, köhnə, apxaik cəmiyyətin öz iqtisadi, siyasi, sosial, və mədəni inkişafı sahəsində müəyyən mərhələyə çatması sayəsində mümkün olmuşdur. Burada məhsuldar qüvvələrin, cəmiyyətin zehni-intellektual inkişafı faktı ön plana çəkilməlidir.

İkincisi, sivilizasiya sosial çevriliş nəticəsində yaranmışdır. Bu o deməkdir ki, sivilizasiya cəmiyyətlə insan arasında əlaqələri, münasibətləri nizama salan yeni sosial prinsiplərin bərqərar olması ilə səciyyələnir.

Bir çox tədqiqatçılar sivilizasiya anlayışında mədəniyyətin rolunu azaltmadan insanın özünün mənəvi-əxlaqi inkişafını, onun bir şəxsiyyət kimi formalaşması və inkişafını ön plana çəkir. Çünki, sivilizasiyanın inkişaf səviyyəsi, cəmiyyətin özünün sivilizasiyalılıq dərəcəsi heç də bu cəmiyyətdə istehsal olunan maddi məhsulların kəmiyyət və keyfiyyəti ilə deyil, birinci növbədə insanın

səviyyəsi ilə, onun öz mahiyyətini, öz həyat qüvvələrini realizə etməsi səviyyəsi iləölçülür.

Yalnız o cəmiyyət yüksək sivilizasiyalı cəmiyyət adlanmağa layiqdir ki, burada şəxsiyyətin mənəvi, intellektual və əxlaqi zənginliyi üçün hərtərəfli şərait yaranır, insan təbiəti, tələbatı və qabiliyyəti daima ülvülik istiqamətində dəyişi, inkişaf edir və təkmilləşir. Bu həm də cəmiyyətdə iqtisadi, ictimai-siyasi və mənəvimünasibətlərin yetkinlik səviyyəsinin, cəmiyyətin insan üçün nə dərəcədə insani olmasının ölçüsüdür. Mədəniyyətin ayrılmaz tərkib hissəsi olmaqla sivilizasiyanın ən yüksək məqsədi məhz insanın əqli, əxlaqi, estetik potensialını daim artırmaqdan ibarətdir.

**Ədəbiyyat**:


1. Hüseynli Q. “Sivilizasiya və Multikultiralizm” Bakı 2017.
2. Manafova M., N.Əfəndiyeva, S.Şahhüseynova. Mədəniyyət tarixi vənəzəriyyəsi. Bakı: 2006



**Зулейха Гурбанова**


**Цивилизация и его значение**


**Резюме**

Автор данной статьи исследует значение понятия цивилизация. В статье феномен цивилизации рассматривается с точки зрения различных теоретических концепций.



**Ключевые слова:** национальный, общечеловеческий, цивилизация, культура, прогресс.



**Zuleykha Qurbanova**


**Civilization and its valueSummary**


The author of this article explores the meaning of civilization. In the article the phenomenon of civilization is considered from the point of view of different theoretical concepts.



**Keywords:** national, human, civilization, culture, progress.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.05.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 30.05. 2018Məqalənin çapa qəbul olunma tarixi: 19.06. 2018**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfədoktoru, dosent Xaləddin Sofiyev**

**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**